# GÖRKƏMLİ ELMŞÜNAS ALİM



Məmmədov Əziz Bəşir oğlu. O, xalqımızın qədim elm və mədəniyyət mərkəzi olan Şamaxı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Bakı şəhərində orta məktəbi qızıl medalla bitirərək Bakı Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuş və oranı əla qiymətlərlə başa vurduqdan sonra təhsilini davam etdirmək üçün aspiranturada saxlanılmışdır. O, 1962-1965-ci illərdə fizikanın fəlsəfi problemləri sahəsində aspiranturada təhsilini davam etdirmiş, 1967-ci ildə "Müasir fizikada məkan-zaman problemi" mövzusunda namizədlik, 1991-ci ildə "Dialektik idrak və ümumelmi tədqiqat metodları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Ə.Məmmədov 1996-cı ildən BDU-nun fəlsəfə kafedrasının professorudur. Alim respublikamızda fizikanın və bütövlükdə təbiətşünaslığın fəlsəfi problemlərinin tədqiqinə qatılan ilk fizik-filosoflarımızdandır. Zəngin və geniş dünyagörüşünə, dərin və hərtərəfli təbii-elmi və fəlsəfi biliklərə malik olan professor fəlsəfənin çətin və nisbətən az tədqiq edilmiş sahələri, o cümlədən fizikanın fəlsəfi problemləri, təbiətşünaslığın konseptual əsasları, idrak nəzəriyyəsi, epistemologiya, elmi idrakın metodoloji prinsipləri, elmşünaslığın aktual məsələləri, sinergetika, Lütfi Zadənin qeyri-səlis məntiq və qeyri-səlis çoxluq nəzəriyyəsi üzrə dəyərli elmi tədqiqatların müəllifidir.

Ə.Məmmədov hələ namizədlik dissertasiyası üzərində işləyərkən fizikanın fundamental nəzəriyyələrindən olan nisbilik nəzəriyyəsinin məkan-zaman problemi sahəsində ciddi inqilabi dəyişikliklər yaratmış relyativist effektlərinin sonralar sovet filosofları və təbiətşünas alimləri tərəfindən yüksək qiymətləndirmiş yeni və orijinal izahını vermişdir. Onun müasir epistemologiyanın nəzəri və empirik metodlarının tədqiqinə həsr olunmuş doktorluq dissertasiyası da elmi fikrin yenilik məqamları ilə zəngindir. Belə ki, Əziz Məmmədov həmin dissertasiyasında və sonralar çap etdirdiyi irihəcmli monoqrafiyasında yalnız respublika filosoflarının deyil, bütün MDB filosoflarının marağına səbəb olan bir problemin - elmi idrak metodlarının yeni təsnifatına imza atmışdır. Təbiətşünas filosof kimi Əziz müəllimin maraq dairəsi geniş, tədqiqat istiqamətləri rəngarəng, hadisələrə baxış bucağı böyük, yeni fikir, yeni söz söyləmək səriştəsi güclüdür. Bu maraq onun müxtəlif illərdə yazıb, çap etdirdiyi çoxsaylı monoqrafiyalarında, kitab və məqalələrində öz əksini tapmışdır.

Tədqiqatçı alim və geniş dünyagörüşlü filosof olmaq etibarilə Əziz müəllimin yaradıcılıq fəaliyyətini aşağıdakı sahələrə ayırmaq olar:

**Birincisi,** fizikanın fəlsəfi problemlərinin tədqiqi. Bu sahədə zəngin bilik və intellektual erudisiya nümayiş etdirən Əziz müəllimin maraq dairəsinə klassik fizikadan tutmuş kvant mexanikası və elementar hissəciklər nəzəriyyəsinin müasir fəlsəfi problemlərinə qədər ən müxtəlif fiziki məsələlər, virtual hissəciklər, kvarklar haqqında ən fundamental biliklər daxildir. Onun bu problemin araşdırılmasına həsr etdiyi tədqiqatlar öz ifadəsini "Müasir fizika və məkan-zaman problemi", "Dialektik idrak və eksperimental metod", "Simmetriya, asimmetriya və invariantlıq", "Müasir fizikanın metodoloji prinsiplərinin fəlsəfi təhlili", "Materiya və hərəkət" və "Müasir fizikaya fəlsəfi baxış" adlı fundamental monoqrafiyasında öz əksini tapmışdır. Qeyd etməliyik ki, Ə.B.Məmmədovun "Müasir fizikaya fəlsəfi baxış" (Bakı, 2002) adlı irihəcmli və dərin məzmunlu kitabı respublikamızda fizikanın nəzəri məzmununun fəlsəfi-məntiqi, metodoloji və dünyagörüşü təhlilinə həsr olunmuş ən fundamental monoqrafik tədqiqatdır.

**İkincisi,** müasir təbiətşünaslığın aktual problemlərinin konseptual səpgidə öyrənilməsi. Təbiətşünaslığın fundamental sahəsi və sinkretik sistem kimi Ə.Məmmədovun elmi maraq dairəsinə daxil olması təsadüfi deyil, irimiqyaslı vəzifələrin həyata keçirilməsi ilə səciyyələnən zəmanəmizdə insanın təbii-elmi biliklərə olan ehtiyacı ilə bağlıdır. Məhz bu tələbatı dərk etdiyi üçündür ki, Əziz müəllim öz elmi fəaliyyətinin bu istiqamətində müasir təbiətşünaslığın müxtəlif sahələrində əldə edilmiş nailiyyətləri ümumiləşdirmək və müasir oxucuda təbiətşünaslığın ümumi panoraması haqqında konkret, aydın və dərin bir təəssürat yaratmaq məqsədilə tədqiqat aparmışdır. Onun bu sahədə fəaliyyəti geniş oxucu kütləsinə yaxşı məlum olan, respublikamızın təbiətşünas alimləri və filosofları tərəfindən rəğbətlə qarşılanan və yüksək dəyərləndirilən irihəcmli monoqrafiya və dərsliklərində, o cümlədən "Müasir təbiətşünaslığa konseptual yanaşma" (Bakı, 2001), "Təbii-elmi biliyin fəlsəfi əsasları" (Bakı, 2014) monoqrafiyalarında, habelə 3 kitabdan ibarət olan "Müasir təbiətşünaslığın konsepsiyaları" (Bakı, 2001, 2002, 2003) irihəcmli müxtəlif dərsliklərində, 2005 və 2006-cı illərdə Moskvada çap olunmuş dərslik və monoqrafiyalarında ("Концептуальный подход к современному естествознанию". Москва. 2005, 2006) kristallaşmışdır.

**Üçüncüsü,** idrak nəzəriyyəsi və elmi idrakın metodologiyası sahəsində aparılan tədqiqatlar. Heç bir mübaliğəyə yol vermədən professoru respublikamızda bu sahədə aparılan tədqiqatların aparıcı qüvvəsi adlandırmaq olar. Fəlsəfənin nəzəri problemlərinə geniş meydan açan idrak nəzəriyyəsinin aktual problemləri artıq 30 ildən artıqdır ki, Əziz müəllimin əsas tədqiqat istiqamətlərindən biridir. Əziz müəllimin bu sahəyə həsr etdiyi "Rasionallıq və qeyri-rasionallıq: "Fəlsəfi-metodoloji təhlil" (Bakı, 2010), "Dialektik idrak və ümumelmi tədqiqat metodları" (Bakı, 1996), "Elmi idrakın metod və formaları" (Bakı, 1980), "Elmi idrakın metodları", "Yaradıcılıq və intuisiya haqqında fəlsəfi düşüncələr" və yüzlərlə məqalələri fəlsəfi fikrin inkişafına dəyərli monoqrafik tədqiqatlardır. Bu əsərlərin hər biri elmi yeniliklərlə zəngindir: metod anlayışının yeni orijinal tərifi, metod və nəzəriyyənin qarşılıqlı əlaqəsinin bir sıra aspektlərinin aşkarlanması və mənalandırılması, metodologiyanın təşkilinin və struktur səviyyələrinin sistemli təhlili, elmi idrak metodlarının yeni təsnifatının verilməsi, idrak prosesində rasional və qeyri-rasional əməliyyatların müqayisəli təhlili, şüurun maddilik probleminin ilk dəfə öyrənilməsi və s. adıçəkilən əsərlərin elmi yeniliklərinin heç də tam olmayan siyahısıdır.

Professorun nəzəri yaradıcılığını işıqlandırarkən biz onun əsərləri içərisində ən fundamental iş olan böyük həcmli, dərin mənalı, ensiklopedik xarakterli "Rasionallıq və qeyri-rasionallıq: fəlsəfi-metodoloji təhlil" monoqrafiyasını ayrıca qeyd etmək istəyirik. Müasir fəlsəfi sistemdə yeni və ortaya atılan bu problemin MDB ölkələrində fəaliyyət göstərən tədqiqatçıları sırasında ən layiqli araşdırmalardan biri, professor Əziz Məmmədova məxsusdur.

**Dördüncü,** sinergetika və Lütfi Zadənin qeyri-səlis nəzəriyyələri üzrə tədqiqatlar sahəsi. Məlum olduğu kimi, sinergetika keçən əsrin 70-ci illərində Avropada yaranmış yeni nəzəriyyə, yeni elmi istiqamətdir. Müasir elmdə yeni cığır açan, təfəkkürün özünü təşkil edən mürəkkəb sistemlər üzərində fokuslaşdıran bu nəzəriyyənin epistomoloji dəyəri və fəlsəfi fikrin inkişafına gətirdiyi yeniliklər Əziz müəllimin bu elmi yeniliklərə olan marağından və narahat ruhundan kənarda qala bilməzdi və bu sahədə apardığı səmərəli tədqiqatlar onun bu sahəyə maraq hissini aydın ifadə edir. Təəssüflə qeyd etməliyik ki, post qeyri-klassik rasionallığın mühüm paradiqmalarından sayılan bu elm uzun müddət respublikamızın elmi həyatına daxil edilməmiş, müxtəlif ixtisas sahiblərinin diqqət mərkəzindən kənarda saxlanılmışdır. Respublikamızda sinergetik tədqiqatlara təkan verən (prof. Ə.Abbasov, prof. F.Qurbanov, prof. T.Allahyarova) ilk təkan verən tədqiqatçılardan biri də Əziz müəllim olmuşdur. Onun "Sistemli yanaşma və sinergetik paradiqma" (Bakı, 2012) adlı monoqrafiyasında, çap etdirdiyi çoxsaylı məqalələrdə, rəhbərlik etdiyi iki doktorluq və bir namizədlik dissertasiyasında yeni elmin bir sıra problemləri geniş elmi tədqiqatlar müstəvisinə çıxarılaraq özlərinin pozitiv istiqamətini tapmışdır.

Fəlsəfə "insan-dünya" sistemi haqqında elm olduğu üçün hər bir əqidəli filosofun öz elmi yaradıcılığında insan probleminə müraciət etməsi təbiidir. Bu kontekstdə xalqımızın görkəmli filosoflarından olan Əziz müəllimin də insan probleminə müraciət etməsi tamamilə təbiidir. Məhz buna görə də "İnsan" problemi Əziz Məmmədovun yaradıcılığından qırmızı xətlə keçən problemlərdəndir. Onun öz milli fəlsəfəmizin arsenalına daxil etdiyi "insan haqqında fəlsəfi düşüncələr", "Elmi idrak və insan problemi", "Təbii-elmi idrak və insan dünyası" (Bakı, 2011) adlı əsərləri, xüsusilə sonuncu monoqrafiyası insanlıq naminə yazılmış, son dərəcə oxunaqlı, yüksək elmi məziyyətlərə malik və hər kəsdə insan haqqında dərin düşüncələr yaradan unikal əsərdir.

Professor Bakı Dövlət Universitetinin fizika fakültəsinin və aspiranturasını bitirdikdən sonra ardıcıl surətdə təbiətşünaslığın fəlsəfi problemləri, dialektik idrak nəzəriyyəsi, fəlsəfi metodologiya, sinergetika, qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi sahəsində genişspektrli elmi tədqiqatlara imza atıb. Əziz müəllimin elmi yaradıcılığının vüsəti və əhatə dairəsi haqqında təsəvvür yaratmaq üçün təkcə bunu demək kifayətdir ki, onun elmi axtarışlarının nəticələri 40-dan artıq monoqrafiya və kitabda, 350 elmi məqalədə əksini tapıb, bir sıra əsərləri xarici ölkələrdə, o cümlədən ABŞ-da, İngiltərədə, Rusiyada, Türkiyədə, Macarıstanda, Qazaxıstanda, Ukraynada çap olunub. Təsadüfi, deyil ki, Ə.Məmmədov "Vektor" Beynəlxalq Elm Mərkəzinin 2003-cü ildə keçirdiyi rəy sorğusuna əsasən "XXI əsr Azərbaycan alimləri" Beynəlxalq layihəsinin qaliblərindən biri olub. Fəlsəfə və təbiətşünaslıq elmlərinin inkişafı sahəsində xidmətləri nəzərə alınaraq o, Beynəlxalq Müasir Elmlər Akademiyasının, Avrasiya İdarəçilik Elmlər Akademiyasının, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, Rusiya Fəlsəfə Cəmiyyətinin həqiqi üzvü seçilmişdir. Əziz müəllim uzun müddət "Fəlsəfə və sinergetika" adlı ümumrespublika seminarının sədri kimi, səmərəli fəaliyyət göstərmiş, respublikamızda çap olunan "Müasir təbiətşünaslığın nəzəri-praktiki və metodoloji aspektləri" məqalələr külliyyatının elmi redaktoru olmuşdur və o, respublikanın ali məktəblərində çap olunan bir sıra elmi jurnalların redaksiya heyətinin üzvüdür.

Əziz Məmmədovun respublikada fəlsəfə üzrə kadrların hazırlanması sahəsində də müəyyən xidmətləri var. Onun bilavasitə rəhbərliyi altında 15 namizədlik və 2 doktorluq dissertasiyası hazırlanıb. Professor 22 il müddətində BDU-da fəaliyyət göstərən doktorluq müdafiə şurasının elmi katibi, 2017-2019-cu illərdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiyasının Ekspert Şurasının sədri vəzifəsini icra etmişdir. Onun elm və təhsilin inkişaf etdirilməsi qarşısındakı xidmətləri nəzərə alınaraq fəaliyyət göstərdiyi Bakı Dövlət Universitetində "İlin müəllimi" adına layiq görülmüş, 2015-ci ildə ən yaxşı tədqiqatçı alim kimi Azərbaycan Respublikası "Avropa Nəşr Mətbuat Evi"nin, "Qızıl medalı", 2014-cü ildə Azərbaycan Respublikası "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə, dəfələrlə Təhsil Nazirliyinin və BDU-nun rektorluğunun fəxri fərmanları ilə təltif olunmuşdur. Görkəmli elmşünas alim, professor Əziz Məmmədov 50 ildən çoxdur Bakı Dövlət Universitetində işləyir.

Ə.Məmmədov elmin təbliğatı sahəsində də səmərəli fəaliyyət göstərir. O, dəfələrlə Bakı, Moskva, Kiyev, Sumqayıt, Rostov şəhərlərində keçirilən elmi konfransların və simpoziumların iştirakçısı olub, mühüm elmi mövzularla çıxış edib. Alim son 20-30 ildə təkcə Bakı şəhərində keçirilən 50-dən artıq elmi konfransda, seminarlarda aktual problemlərə aid məruzələrlə çıxış etmişdir. Professor həm də təkcə Bakı Dövlət Universitetinin deyil, eləcə də respublikamızın görkəmli pedaqoqlarından biridir. Onun BDU-nun müxtəlif fakültələrində oxuduğu və tələbələrin ana laylası qədər şirin hesab etdikləri mühazirələri özünün yüksək nəzəri və elmi-metodik səviyyəsi ilə fərqlənir.

**Məhəmməd BALAYEV,**
**ADPU-nun professoru,**
**Fəlsəfə üzrə elmlər doktoru,**
**Əməkdar müəllim.**